Fotokimyəvi reaksiyaların bitkilərin inkişafında rolu böyükdür. Məs:Fotosintez prosesində günəş işığının bitkilər tərəfindən udulmasını ilk dəfə K.Timiryazev müəyyən etmişdir.

$$nCO_2 + nH_2O \rightarrow (CH_2O)_n + nO_2$$

SUYUN ION HASİLİ

Su zəif elektrolitdir. Saf su elektrik cərəyanını pis keçirir,ona görə də suyun dissosiasiyası çox zəif gedir.Məs: $H_2O = H^+ + OH^-$, onu bəzən belə də göstərirlər:$2H_2O$ =H3O+. Bu tənliyə kütlələrin təsiri qanunu tətbiq etsək ,onun dissosiasiya sabiti K= H_2O olur. (I) yaxudda

$$K_{H2O}= H^+ OH^-.$$

Onda 298K-də $K_{H2O}=1,8.10^{-16}$

Bizə məlumdur ki, bütün su molekullarının hamısı deyil,onun az bir hissəsi dissosiasiya etdiyindən suyun qatılığı dəyişmir,yəni [H_2O]=Const. olur. O suyun 1 litrində olan molekulların sayını göstərir .Onu aşağıdakı kimi hesablamaq olar.

$$H_2O= 1000/18=55,55 \text{ mol/l olar.}$$

Əğər suyun qatılığı dəyişmirsə,yəni sabitdirsə K_{H2O} -da sabit olmalıdır. Yəni saf suda və neytral məhlullarda [H] və [OH] ionlarının qatılığı bərabərdir və bu suyun ion hasili adlanır. Onda

$K_{H2O}= H^+OH =K\,[H_2O]=1,86.10^{-16} \times 55,55 = 10^{-14}$.

Deməli sabit temperaturda hidrogen və hidroksid ionlarının hasili sabit kəmiyyət olduğundan $H^+ OH=10^{-14}$ kimi yazmaq olar. Onda $H^+ OH=\sqrt{10^{-14}}=10^{-7}$ mol/l olar.

Deməli 1l saf suda 10^{-7} mol hidrogen ionu və 10^{-7} mol OH ionu vardır. Yuxarıda verilənlərdən istifadə edərək məhlulda hidrogen və OH ionlarının qatılığını hesablaya bilərik.

Əgər saf suya turşu əlavə etsək hidrogen ionlarının ([H^+]>[OH^-])qələvi əlavə etsək hidroksil ionlarının qatıklığı artacaq([OH^-]>[H^+]).Ancaq mənfi üstlü kəmiyyətlərdın istifadə etmək əlverişli olmadığından Danimarka alimi Sorenze 1909-cu ildə təklif etdi ki,məhlulun turşuluğu və ya əsaslığını

təyin etmək hidrogen ionunun (-) işarə ilə göstərilmiş onluq loqarifmindən istifadə olunur.Onu hidrogen göstəricisi adlandırmışdır və pH ilə işarə edilir.Onda:

$$pH=-Ig[H^+] \text{ olur.}$$

Hidrogen ionlarının sayı nə qədər çox olarsa pH bir o qədər az olur:

pH=7 neytral mühit

pH > 7 qələvi mühit

pH<7 turş mühit

KİMYƏVİ RABİTƏ

Kimy'vi rabit' o zaan yaran;r ki atomlar yaxınlaşdıqda sistemin tam enerjisi azalsın. Atomlar yaxınlaşdıqda iki tip elektrostatik qüvvə yaranır: bir atomun nüvəsi ilə digər atomun elektronu arasında cazibə və itələmə qüvvələri(müxtəlif atomların nüvələri və elektronları arasında).Əvvəlcə cazibə qüvvəsi stün olur, sonra isə itələmə qüvvəsi.Bu zaman potensial enerjinin minimum qiymətində sistem davamlı olur.

Maddənin quruluşunu öyrənərkən istifadə olunan ən mühüm anlayış kimyəvi rabitədir. Atomun elektron buludlarının qapanması nəticəsində sistemin tam enerjisinin azalması ilə yaranan rabitə kimyəvi rabitə adlanır. Kimyəvi rabitənin parametrləri: **1.rabitənin uzunluğu, 2.rabitənin enerjisi 3.rabitə bucağıdır.**

Kimyəvi rabitəni qırmaq üçün sərf olunan enerji rabitə enerjisi adlanır.

Atom orbitallarının örtülməsi zamanı onların nüvələri arasında qalan məsafə rabitənin uzunluğu adlanır. Məs: (H-H , d = 0,75A).

Atom orbitallarının örtülməsi zamanı onların nüvələrindən keçən düz xətt arasında yaranan bucaq rabitə bucağı adlanır. Rabitə buçağının yaranması üçün ən azı iki kimyəvi rabitə olmalıdır.

Əmələ gəlmə mexanizminə görə kimyəvi 3 qrupa bölünür:

1.İon 2.Kovalent 3.Metallik

İON RABITƏ

Kimyəvi rabitə haqqında ilk məlumat elmə Bersellius tərəfindən verilmişdir. O bu nəzəriyyəni elektrokimyəvi nəzəriyyə adlandırmışdır.

Berselliusa görə atom elektromüsbət və elektromənfi olmaqla 2 qrupa bölünür. Kimyəvi rabitə elktrostatik cazibə qüvvəsi hesabına yaranır. Bu zaman atomun mürəkkəb quruluşlu olması məlum deyildi.

Bu nəzəriyyənin çatışmayan cəhətləri var idi. Bu nəzəriyyəyə görə eyni növ atomlar arasında kimyəvi rabitə yarana bilməz.Atomun elektron quruluşu müəyyən edildikdən sonra XX əsrin əvvəllərində kimyəvi rabitə inkişaf etməyə başladı.1916-cı ildə Kossel ion rabitəsi nəzəiyyəsini verdi.Onun fikrincə tipik metallarla və üeyri metalllar arasında kimyəvi rabitə mexanizm üzrə gedir.Məs:NaCI

$Na^{\cdot}+\cdot CI \quad Na^{+}+ CI^{-} \rightarrow NaCI$ Molekulun davamlı olması üçün ən mühüm şərt hər iki atomun təsirsz qaz konfiqurasiyası olmasıdır.Göstərilən misalda Na öz e- verərək Ne-nun elektron quruluşunu,CI isə e- qəbul edərək Ar elektron quruluşunu alır. Beləliklə.ion rabitəsi əmələ gələrkən elektromənfiliyi kiçik olan atom,daha elektromənfi element elementə verir və əmələ gələn ionlar təsirsiz qazların elektron konfiqurasiyasını alır və Kulon qüvvəsi iıə əlaqədar olur.Əslində sırf ion rabitəsi mövcud deyil. Buna görə də rabitənin ionluq dərəcəsi anlayışından istifadə olunur. Yəni e-nu metaldan qoparmaq üçün tələb olunan enerji onu q/metala birləşən zaman ayrılan enerjidən çoxdur.

KOVALENT RABİTƏ

Ковалент rabitəя 1916-cı ldə amerikan kimyaçısıcы Lyüis tərəfində irəli sürülmüşdü. Sonra Sicvik tərəfindən inkişaf etdirilmiş ,xüsusilə də kompleks birləşmələrin alınmasına tətbiq edilmişdir. Elə buna görə də bu nəzəriyyə Sicvik nəzəriyyəsi adlnır.

İon rabitəsi haqda təsəvvürlər üzvi maddələrin quruluşunu,bəsit maddə molekullarının quruluşunu izah edə bilmirdi.Ona görə də elə həmin vaxt Lyüis kovalent rabitə anlayışını elmə daxi etdi.Lyüsin fikrincə kimyəvi rabitəni atomların ortaq elektron cütünə malik olması hesabına yaranır. Deməli **kovalent rabitə 2 atom arasında ortaq elektron cütü hesabına yaranır**. Bu zaman atomlar arasında elektron sıxlığı artır və nəticədə nüvələr bir-birini cəzb edilir. Kossel nəzəriyyəsində olduğu kimi Lyüis nəzəriyyəsində də kimyəvi rabitə təsirsiz qaz konfiqurasiyası yaradır. Məs: H·+·H →H:H Əgər bu cür tamamlanma olmazsa molekul davamsız olur.Kovalent rabitə polyar və q/polyar olur.Q/polyar kovalent rabitə elektromənfilikləri eyni olan atomlar arasında yaranırəMəs.H_2,N_2,CI_2 və s.

H · +·H → H:H

Deməlihidrogen atomları bir-birinə yaxınlaşdıqda onların arasında ümumi elektron cütü əmələ gəlir ki, bu da hər iki nüvənin sahəsində hərəkət edir,yəni hər iki atoma eyni dərəcədə aid olur.Xlor molekulu yarananda da molekul bu cür

Polyar kovalent əlaqə isə elektromənfilikləri cüzi fərqlənən elementlər arasında yaranır .

H·+: $\dot{C}I$:→ H: $\dot{C}I$:

.. ..

Kovalent əlaqə digər əlaqələrdən fərqli olaraq aşağidaki xüsusyyətlərə malikdir:

1.rabitənin doymuşluğu

2. rabitənin istiqamətlili

3. rabitənin polyarlığı

Rabitənin doymuşluğu dedikdə element atomunun qonşu atomla maksimum neçə rabitə yarada biləcəyi,başqa sözlə desək rabitə yaranmasına neçə elektron sərf olunacağı başa düşülür.

Kovalent əlaqənin doyarlığı. Valentlik ümumi halda elemenentin kimyəvi rabitə yaranarkən istifadə etdiyi orbitalların sayı ilə müəyyən edilir.

2-ci dövr elementləri s- və p- orbitallarından istifadə edərək maksimum 4 valentlik,3-cü və sonrakı dövrlərin elementləri isə p- və d- orbitallarından istifadə edir və keçid elementləri s,p və d- orbitalından istifadə edərək 9 kovalentlik göstərə bilirlər.Deməli hər dövr elementinin valentlik imkanı məhduddur.

Hər bir element məhdud miqdarda kovalent rabitə əmələgətirmə qabiliyyəti kovalent rabitənin doyması kimi başa düşülür .

Ковалент rabitənin istiqamətlili - rabitənin mıhkəmliyi orbitalların maksimum örtüldüyü istiqamətlərdə meydana gəlir. Atom orbitalları müəyyən həndəsi formaya malik olduqları üçün,onların maksimum örtüldüyünü təmin etmək üçün orbitalların müəyyən fəza orientasiyası təmin olunmalıdır.Buna görə də kovalent rabitə fəzada istiqamətlənməsi ilə xarakterizə olunur.

DONOR-AKSEPTOR RABITƏ

Donor-akseptor rabitə bir element atomunun istifadə olunmamış elektron cütü digər elementin boş orbitalı hesabına yaranan rabitədir.Bu rabitə ilk dəfə 1927 ci ildə Amerikan alimi Sicvik tərəfindən inkişaf etdirilərək kompleks birləşmələrə tətbiq edilmişdir. Məs: bunu NH_3,CO və s birləşmələr üzərində izah etmək olar. Məs NH_3 və HCI arasında kimyəvi rabitənin yaranmasına diqqətlə fikir versək görərik ki, burada donor akseptor rabitə NH_3 molekulunda azot atomunun istafadə olunmamış elektron cütü ,HCI molekulunda H_2 boş orbitalı hesabına yaranır. Burada N_2 atomu elektron cütünü verən, yəni donor, H_2 atomu isə e^- cütünü qəbul etdiyi üçün akseptor sayılır. Nəticədə donor - aksptor hesabına NH_4^+ ionu yaranır. A: +□B → A[:]B



HİDROGEN RABİTƏSİ.

Hidrogen rabitəsi yüksək polyarlaşmış H_2 atomu ilə mənfi polyarlaşmış q/metallar arasında yaranır. Kəskin polyarlaşmış H_2 atomu digər polyarlaşmış atomlardan onunla fərqlənirki, onun daxili elektron təbəqəsi olmadığından praktiki olaraq protondan ibarətdir.Yəni ölçüləri polyarlaşmış atomdan qat-qat kişikdir. Ona görə də (+) polyarlaşmış H_2 atomu q/m elektron buludu ilə qarşılıqlı təsirdə olub ona kəskin yaxınlaşa bilir. Bu məsafə çox kiçik olur.

Hidrogen rabitəsi molekularası və molekuldaxili olmaqla 2 növ olur. Molrkularası hidrogen rabitəsi molekullar arasında əmələ gəlir.

$$H - F \cdots H - F \cdots H - F$$

Hidrogen rabitəsi suda $H3O^+$ və OH^- ionlarının yüksək mütəhərrikliyini izah edir.

$$H^+ \rightarrow O^{--} - H^+ \cdots O^{--} - H^+ \rightarrow H^+ - O^{--} + H^+$$

(Щ$^+$ дашынмасы)

H_2 rabitəsi öz enerjisinə görə kovalent rabitədən 10 dəfə zəif,Vander-Vals qüvvələrindən isə 10 dəfə güclüdür. H_2 maddənin fiziki və kimyəvi xassələrinə ciddi t əsir göstərir. Əgər su molekulları arasında H2 rabitəsi olmasaydı su 0^oC-də deyil-80^oC-də donardı,qaynama temperaturu 100° deyil,0^oC olardı. Suyun donma zamanı həcminin genişlənməsi H_2 rabitəsilə izah olunur. Məs. Suyun qızdırılması zamanı onun sıxlığı 4^oC –yə qədər artır,sonra isə azalır .Buda H_2 rabitəsi ilə əlaqədardır. Suyun qızması zamanı 2 proses baş verir.

1. Qəfəsdən molekulların istilik hərəkətinin artması nəticəsində termiki genişlənməsi baş verir.
2. Digər tərəfdən H_2 rabitəsinin qırılması nəticəsində molekulların daha sıx qablaşma imkanı yaranır.0-4^oC –yə qədər II proses, sonra isə I proses üstünlük təşkil edir.

Molekuldaxili H_2 rabitəsini molekuldaxilində 2 funksional qrup olan birləşmələr əmələ gətirir.



nitrobenzol

Metallik rabitə

Metal atomlarının xarici elektron təbəqəsində valent elektronlarının sayı azdır,ancaq boş orbitalların sayı çoxdur. Bu isə kristal qəfəsin istənilən hissəsində elektronların nüvəyə yaxınlaşmasını asanlaşdırır.Rabitə iki metal atomu arasında və ya intermetallik birləşmələrdə yaranır. Bu metallarda

1) elektrik və istilik keçiriciliyi yüksəkdir;

2) adi halda kristallik maddələrdir. (Hg başqa) onlarda quruluş atomların yüksək koordinasiyası ilə xarakterizə olunur.

Metalların kristal qəfəslərinin düyünlərində metal atomları yerləşir.Xarici faktorların təirində onlar xarici electron təbəqəsində olan elektronları verərək (+) yüklənir.Elektronlar isə düyün nöqtələri arasındakı boşluqlara keçir. **Deməli metal rabitə metal ionları ilə sərbəst elektronlar arasında yaranan rabitədir.** Metallik rabitə yaranan zaman elektronlar metalın bütün sahəsinə yayılır. Metal atomları bir-birilə 2 elektronlu rabitə ilə birləşmirlər. Qəfəsdə hər atomun yaxın qonşularının sayı çox olduğundan iki elektronlu rabitə yaratmaq üçün onların elektronları çatmır.

Məs. Li hər atom 8 Li atomu ilə əhatə olunur. Deməli , metal rabitə yaratmaq üçün Li 8 elektronu olmalı idi. Ancaq Li cəmi bir valent elektronu var.

Beləliklə ion və kovalent rabitədən fərqli olaraq metallik rabitə zamanı çoxmərkəzli nüvələr az miqdarda elektronlarla birləşirlər. Bu zaman kollektivləşmiş elektronlar(elektron qazı) lokallaşmış çoxmərkəzli kimyəvi rabitə yaradırlar. Deməli metallik rabitə elektron buludlarının ümumiləşməsi ilə yaranan çoxmərkəzli rabitıədir.

Електролиз Elektroliz qanunları

Əritdikdə və ya suda həll etdikdə elektrolitlərdən sabit elektrik cərəyani keçdikdə elektrodlar üzərində gedən oksidləşmə -reduksiya reaksiyaları elektroliz adlanır

Elektrolitlər suda həll edildikdə və əridildikdə ionlara dissosiasiya edirlər. Bu cür məhlullardan sabit elektrik cərəyanı keçirdikdə ionların xaotik hərəkəti nizamlanır.

Elektrolitlərin sulu məhlulundan və ərintisidən sabit elektrik cərəyanı keçdikdə elektrodlar üzərində maddə toplanması və yaxud elektrodlarda gedən oksidləşmə-reduksiya reaksiyası elektroliz adlanır.

Elektrolizin iki qnunu məlumdur. XIX əsrin 30-cu illərində Faradey tərəfindən verilmişdir

1-ci qanun - Elektroliz zamanı elektrodlarda toplanan maddənin miqdarı elektrolitdən(sulu məhlulu və və ya ərintisindən) keçən elektrik yükünün miqdarı ilə düz mütənasibdir.

m=kq; q=It olduğundan

m=kIt olacaq.

m – elektrodlarda oksidləşən və ya reduksiya olunan maddənin kütləsi;

q – elektrodlardan keçən yükün miqdarı(kulonla);

I – cərəyan şiddəti (amperlə);

t – elektroliz müddəti (san.);

2-ci qanun - Elektroliz zamanı elektrik yükünün eyni miqdarı elektrodlarda müxtəlif maddələrin ekvivalent miqdarının ayrılmasına səbəb olur**. Elektroliz zamanı elektrodlarda bir qram ekvivalent miqdar maddə ayrılması üçün elektrolitdən eyni miqdarda-96500 kulon yük keçməlidir. Buradan** F=96500 KI (Faradey sabiti adlanır) .

Онда: m = kq q=It yazılır.

m – elektrodlarda oksidləşən və ya reduksiya olunan maddənin kütləsi;

q - elektrodlardan keçən yükün miqdarı(kulonla);

I - cərəyan şiddəti (amperlə);

t - elektroliz müddəti (san.);

K- elektrokimyəvi ekvivalentdir

Onda $K=\frac{E}{F}$ yazsaq

$$m = \frac{E}{F} It$$ olar.

E- isə kimyəvi ekvivalentdir.

Əgər It=1KI olarsa

$$m= \frac{E}{96500}$$ yaza bilərik. (1)

Elektrokimyəvi ekvivalent elektrolitdən 1KI elektrik yükü keçdikdə elektrodlar üzərində toplanan maddə miqdarıdır.Buradan $E = \frac{A}{B}$ olduğundan, (1) formulunu belə yazmaq olur:

A - елементин атом kütləsi

B-isə elemementin valentidir

$$m = \frac{A}{B \cdot 96500}$$

Oksidləşmə-reduksiya reaksiyaları

Oksidləşmə-reduksiya reaksiyalarını araşdırarkən aşağıdakıları nəzərə almaq lazımdır:

1.Əksər birləşmələrdə oksigenin oksidləşmə dərəcəsi -2-dir,bəzi birləşmələrdə +2, bəzi birləşmələrdə +1, -$\frac{1}{2}$,$-\frac{1}{3}$

2.Metallar birləşmələrində (+) oksidləşmə dərəcəsi göstərir.

3.Hidrogen birləşmələrində (+1),metallarla birləşmələrində (-) oksidləşmə dərəcəsi göstərir

4.Bəsit maddə şəklində elementlərin oksidləşmə dərəcəsi 0-dır

5.Halogenlər,kükürd dəyişkən valentli olduğu üçün onlar (-) və (+) oksidləşmə dərəcəsi göstəririrlər

6.Flüor birləşmələrində yalnız (-1) oksidləşmə dərəcəsi göstərir

Ümumiyyətlə kimyəvi reaksiyaları 2 qrupa bölmək olur.

Birincidə reaksiyada iştirak edən element atomlarının oksidləşmə dərəcəsi dəyişmir. Bura neytrallaşma və ya mübadilə reaksiyalarını,bəzi birləşmə və bəzi parçalanma reaksiyalarını göstərmək olar.

Məs:$NaCI+H_2SO_4 \rightarrow Na_2SO_4+HCI$

$AgNO3+NaCI \rightarrow AgCI+NaNO_3$

$CaCO_3 \rightarrow CaO+CO_2$

$CO_2+H_2O \rightarrow H_2CO_3$ və s.

İkinci halda bütün əvəzetmə reaksiyaları,bəzi parçalanma və bəzi birləşmə reaksiyalarında oksidləşmə dərəcəsi dəyişir.Məs:

$2Na+H_2 \rightarrow 2NaH$

Bəsit maddə şəklində həm Na,həm də H2 oksidləşmə dərəcəsi 0-dır,alinan məhsulda Na(+1),hidrogenin oksidləşmə dərəcəsi isə(-1)-dir. Atom özündən elektron verdikdə(+) yüklü iona keçir,yəni oksidləşir, elektron qəbul etdikdə isə (-) yüklüe iona keçir reduksiya olunur.Məs:

$$S^0 + O_2^0 \rightarrow S^{+4}O_2^{-2}$$

$S^0 - 4e^- \rightarrow S^{+4}$	4	1	oksidləşmə
$O_2^0 + 4e^- \rightarrow O_2^{-2}$	4	1	reduksiya

Oksidləşmə-reduksiya reaksiyalarının tənliklərini düzəltmək üçün 2 üsuldan istifadə olunur.

1.Elektron balansı
2.İon elektron üsulu

Elektron balansı üsulu ilə oksidləşmə-reduksiya reaksiyalarının tənliklərinin düzəldilməsi aşağıdakı üsulla aparılır.

1.Reaksiyaya daxil olan və reaksiya nəticəsində alınan maddələrin kimyəvi formulları yazılır.

2.Reaksiya yazılır

$CuO+H_2 \rightarrow Cu+H_2O$

3.Sonra oksidləşmə dərəcəsini dəyişən elementlərin üzərində oksidləşmə dərəcəsi yazılır.

$$Cu^{+2}O + H_2^0 \rightarrow Cu^0 + H_2^{+1}O$$

5.Osidləşmə dərəcəsini dəyişən elemntlərin sayını bərabərləşdirmək üçün əmsalların yeri dəyişdirilir

$$Cu^{+2} + 2e+ \rightarrow Cu^0 + H_2^{+1}O$$

$H_2^0 - 2e^- \rightarrow 2H^+$	2	1
$Cu^{+2} + 2e- \rightarrow Cu^0$	2	1

Bəzən oksidləşmədərəcəsini 2 deyil çox element dəyişir.Bu zaman osidləşdiricilərin verdiyi elektronları reduksiyaedici əks halda isə oksidləşdirici qəbul edir.Məs:

$$Fe^{+2}S_2^{-1} + O_2^0 \rightarrow Fe_2^{+3}O_3 + S^{+4}O_2^{-2}$$

$Fe^{+2} + e^- \rightarrow Fe^{+3}$	1	11	4
$2S^{-1} + 2\cdot 5e^- \rightarrow S^{+4}$	10		
$O_2^0 + 4e^- \rightarrow O_2^{-2}$	4	4	11

İon-elektron üsulu elektrolitlərin sulu məhlullarında gedən reaksiyalarda tətbiq edilir.

Elektron mübadiləsi nəticəsindəreaksiyada iştirak edən atom və yaxud ionların oksidləşmə dərəcəsinin dəyişməsilə gedən reaksiyalara oksidləşmə-reduksiya reaksiyaları deyilir. Əmələ gəlmə mexanizminə görə oksidləşmə-reduksiya reaksiyaları 3 qrupa bölünür

1.Atom və ya molekularası oksidləşmə-reduksiya reaksiyaları . Atom və ya molekularası oksidləşmə-reduksiya reaksiyalarında oksidləşdirici və reduksiyaedici ayrı-ayrı birləşmələrin tərkibində olur.

2.Molekuldaxili oksidləşmə-reduksiya reaksiyaları. Molekuldaxili oksidləşmə-reduksiya reaksiyalarında oksidləşdirici və reduksiyaedici bir kimyəvi birləşmənin tərkibində olur.Məs:

$$2KClO_3 \rightarrow 2KCl+3O_2$$

$$\begin{array}{l|c|c|c} Cl^{+5} + 6e^- \rightarrow Cl^{-1} & 6 & 1 & \\ \hline 3O^{-2} - 6e^- \rightarrow 3O^0 & 6 & 1 & 2 \end{array}$$

3.Öz-özünə oksidləşmə-reduksiya reaksiyaları. Öz-özünə oksidləşmə-reduksiya reaksiyalarında eyni bir element həm oksidləşdirici,həm də reduksiyaedi olur.

$$Cl_2+2NaOH \rightarrow NaCl+NaClO+H_2O$$

$$\begin{array}{l|c|c|c} Cl_2^0 + 2e^- \rightarrow Cl^{-1} & 2 & 1 & \\ \hline Cl_2^0 + 2e^- \rightarrow Cl^{+1} & 2 & 1 & 2 \end{array}$$

Oksidləşmə-reduksiya reaksiyalarının gedişinə temperatur,maddənin qatılığı və katalizator da təsir göstərir. Məs.yanma prosesi,bəzi birləşmələrin sintezi,fotosintez prosesi və s.proseslər oksidləşmə-reduksiya reaksiyalarının köməyi ilə başa çatır.

DUZLARIN HİDROLİZİ, HİDROLİZ DƏRƏCƏSİ

Duz ionları ilə su ionlarının mübadilə reaksiyaları hidroliz adlanır. Hidroliz nəticəsində suda az həll olan və ya az dissosiasiya edən maddələr(əsaslar,turşular,duzlar) alınır. Bu zaman mühit turş və əsasi olur. Hidroliz olunmaların görə duzlar 4 qrupa bölünür:

1.Qüvvətli əsas və qüvvətli turşudan alınan duzlar

2.Qüvvətli əsas zəif turşudan alınan duzlar

3.Zəif əsas və qüvvətli turşudan alınan duzlar

4.Zəif əsas və zəif turşudan alınan duzlar

Qüvvətli əsas və qüvvətli turşudan alınan duzlar hidroliz etmir.Məs.NaCl suya əlavə etdikdə eyni qüvvəli əsas və turşu alındığından onlar bir-birini neytrallaşdırır.

$$NaCl \rightleftarrows Na^+ + Cl^-$$

su zəif elektrolit olsa da o cüzi də olsa ionlarına dissosiya edir.

$$HOH \rightleftarrows OH^- + H^+$$

$$NaOH+HCl$$

Suda H və OH ionlarının sayı dəyişmədiyindən NaCl suda məhlulu neytral reaksiya verir.

Qüvvətli əsas zəif turşudan alınan duz hidroliz edir bu zaman mühit qələvi olur.

$$CH_3COONa \rightleftarrows CH_3COO^- + Na^+$$

$$HOH \rightleftarrows H^+ \quad {}^+OH^-$$

$$CH_3COOH+ NaOH$$

Zəif əsas qüvvətli turşudan alınan duz hidroliz edir və mühit turş olur.

$$NH4Cl \rightleftarrows NH_4^+ + Cl^-$$

$$HOH \rightleftarrows OH^- + H^+$$

$$NH_4OH + HCl$$

Zəif əsas və zəif turşudan alınan duzlar hidroliz edir və mühit neytral olur.



Demək olar ki,əksər hidroliz reaksiyaları dönərdir. Buna görə də hidroliz, hidroliz dərəcəsi ilə xarakterizə olunur. Hidrolizə uğramış duz ionların sayının , duzun ümumi molekullarının sayına nisbəti hidroliz dərəcəsi adlanır. Hidroliz dərəcəsi α_h-ilə ifadə olunur. Onda

$$\alpha_h = \frac{hidrolizə\ uğramış\ mol\ sayı}{Ümumi\ mol.sayı} \cdot 100$$

KİMYƏVİ KİNETİKA

Kimyəvi kinetika kimyəvi reaksiyaaların sürəti və onun getməmexanizmindən bəhs edən elmdir. əs kimyəvi reaksiyanın sürəti nəyi öyrənir.Kimyəvi reaksiyanın sürəti vahid zamaanda reaksiyada iştirak edən maddə qatılığının dəyişməsini öyrənir.Riyazi tənlik aşağıdakı kimidir.

$$\upsilon = \frac{\Delta n}{\Delta t}$$

Kimyəvi reaksiyanın sürəti homogen və heterogen sitemlərdə öyrənilir.
Homogen reaksiyaların sürəti vahid zamanda vahid həcmdə reaksiyada iştirak edən maddələrin qatılığının dəyişməsilə ilə ifadə olunur : $\upsilon = \frac{\Delta C}{V.\Delta t}$ yazmaq olar. $C = \frac{n}{V}$ olduğundan $\upsilon = \frac{\Delta n}{V.\Delta t}$ kimi də yazmaq olar.
Heterogen sistemlərdə isə reaksiyaların sürəti vahid zamanda vahid səthdə reaksiyada iştirak edən maddələrin qatılığının dəyişməsilə ifadə olunur : $\upsilon = \frac{\Delta n}{S.\Delta t}$
Bunu qrafiki şəkildə belə göstərmək olar.



Reaksiyanın sürəti bir sıra faktorlardan asılıdır:
1.Qatılıq
2.Temperatur
3.Katalizator

4.Reaksiyada iştirak edən maddələr qaz halında olarsa təzyiq.

Qatılığın reaksiya sürətinə təsiri

Qatılığın reaksiya sürətinə təsiri 1867-ci ildə Norveç alimləri Quldberq və Vaage tərəfindən öyrənilmiş və kütlələrin təsiri qanunu adlanır və belə ifadə olunur: Reaksiyanın sürəti reaksiyaya daxil oln maddələri qatılıqlarının vurma hasili ilə düzmütənasibdir.Məs Fərz edək ki,A maddəsi ilə B maddəsi qarşılıqlı təsirdə olur. $aA + bB \rightarrow pAB$ Bura kütlələrin təsiri qanunu tətbiq etsək onda reaksiyanın sürətini belə göstərmək olar.

Burada ϑ-reaksiyanın sürəti,A,B reaksiyaya daxil olan maddələr,mötərizə isə qatılı ifadəsini göstərir. K-isə mütənaiblik olub reaksiyanın sürət sabiti adlanır.

Reaksiyanın qatılıqdan aslılıq düsturunu belədə yazmaq olar.

$$\vartheta = k \cdot C_A \cdot C_B$$

Əgər reaksiya bərk maddə ilə maye və ya qaz arasında gedərsə,reaksiyanın sürəti mayenin və ya qazın qatılığından asılı olaraq dəyişir.Məs: $C + O_2 \rightarrow CO_2$ arasında gedərsə reaksiyanın sürəti oksigenin qatılığı ilə düzmütənasib olacaq.

$$\upsilon = k[O_2]$$

Temperaturun reaksiya sürətinə təsiru

Temperaturun reaksiya sürətinə təsiru Vant-Hoff qaydası ilə müəyyən olunur. Vant-Hoffa görə sabit qatılıqda temperaturu hər 10 dərəcə artırdıqda reaksiyanın sürəti 2-4 dəfə artır.

Vant-Hoff qaydası riyazi olaraq aşağıdakı kimi ifadə olunur.

$$\vartheta_{t_2} = \vartheta_{t_1}\gamma^{\frac{t_2-t_1}{10}}$$

burada $\vartheta_{t_1} reaksiyanın\ t_1$ anındakı sürəti, $\vartheta_{t_1} reaksiyanın\ t_1$ anındakı sürəti,γ-isə temperatur əmsalıdır.O 2 ilə 4 arasında qiymət alır.Daha doğrusu temperatur hər 10 yüksəldikdə reaksiya sürətinin neçə dəfə artdığını göstərir.

Reaksiya sürətinin temperaturdan aslılıöı daha dəqiq Arrenius tənliyi ilə müəyyən edilir.

$$K+Ae^{-E_{A/RT}}\cdot e$$

Tənliyi onluqvloqarifmanı tətbiq etməklə loqarifmalasaq,onda

$$\lg k = \lg A - \frac{E_A}{2{,}303RT}$$

Burada k-mütləq temperaturda reaksiyanın sürət sabiti,A-temperaturdan asılı olmayan sabit kəmiyyət,E- aktivləşmə enerjisidir.

Katalizatorun reaksiya sürətinə təsiri

Katalizator iştirakı ilə gedən reakasiyalar katalitik reaksiyalar adlanır. Hadisə isə kataliz adlanır.Katalizatorun reaksiya sürətinə təsiri aralıq mərhələ nəzəriyyəsi ilə izah olunur.Yəni kataliz aralıq davamsız birləşmələrin əmələ gəlməsi yolu ilə həyata keçir. Katalitik reaksiyalar homogen və heterogen olmaqla iki qrupa bölünür. Homogen katalizdə reaksiyada iştirak edən maddələr və katalizator eyni aqreqat halda olur. Məs. sulfat turşusunun nitroz üsulu ilə alınması homogen kataliz adlanır.Burada reaksiyaya daxil olan maddələr (SO_2 və O_2) və katalizator (NO) eyni aqreqat haldadır.

Bu zaman katalizator ilkin maddələrdən biri ilə davamsız aralıq birləşmə əmələ gətirir.Məs:

SO_2+ O_2 $\underline{NO}$ SO_3+NO

a) $½O_2$+NO → NO_2

b) NO_2+SO_2 → SO_3+NO

Heterogen katalizdə isə reaksiyada iştirak edən maddələr və katalizator müxtəlif aqreqat halda olur .Məs:

SO_2+ O_2 $\underline{V_2O_5}$ = SO_3

Misaldan aydın görünür ki,bu reaksiyada katalizator bərk

Reaksiyaya daxil olan maddələr isə qaz halındadır.katalizatorun

Aktivliyi onun səthinin vəziyyətindən asılıdır. Heterogen

Katalizdə proses bərk maddənin səthində baş verir.

Katalizatorun reaksiyanın sürətinə təsiri şəkildə göstərilmişdir.



Şəkildən görünür ki,katalizatorun iştirakı ilə gedən reaksiya 2-ci əyridir. Burada reaksiyanın aktivləşmə enerjisi ΔE qədər azalır. Katalizatorun aktivləşmə enerjisi mənfi üstlü kəmiyyət kəsrin suətində olduğu üçün aktivləşmə enerjisinin cüzi azalması reaksiyanın sürətinin kəskin artmasına səbəb olur

$$K=ze-\frac{E_{kat.}}{RT}e^{\frac{\Delta S_{akt}}{R}}$$

Bəzi hallarda katalizator kimyəvi prosesin özündə əmələ gəlir. Belə reaksiyalara avtokatalitik reaksiyalar deyilir.

Kataliztor müəyyən müddətdən sonra öz aktivliyini itirir.Buna səbəb kimyəvi reaksiyalarda alınan maddələrin katalizatorun aktiv mərkəzini tutmasıdır. Belə maddələr katalitik zəhər adlanır.

Aktivləşmə enerjisi

Kimyəvi prosesin getməsi üçün maddələrin toqquşması baş verir.Temperatur artdıqda reaksiyanın böyük sürətlə getməsi yalnız toqquşmaların sayı ilə izah edilə bilməz. Buna səbəb bütün toqquşmalar yeni maddənin əmələ gəlməsi ilə nəticələnmir. Aktivləşmə nəzəriyyəsinə görə temperatur ardıqda

maddənin daxili enerji ehtiyatının artmasi hesabina aktivləşmiş molekulların sayi artir. Bu da reaksiya sürətinin artmasına səbəb olur. Deməli reaksiyanın sürəti aktivləşmə enerjisindən asılıdır.
Maddənin 1 molunun aktivləşməsi üçün sərf olunan enerji aktivləşmə enerjisi adlanır.Vahidi kC/mol ilə ölçülür.

Tutaq ki,A və B maddələrindən reaksiya nəticəsində AB maddəsinin əmələ gəlməsi üçün ML energetik həddini keçməlidir. Buna müəyyən qədər aktivləşmə enerjisi sərf edilməlidir.

Aktiv kompleksin parçalanması nəticəsində əmələ gələn enerji molekulun aktivləşməsi üçün sərf edilən enerjidən çox olduqda reaksiya ekzotermik, əks halda endotermikdir.

Reaksiyaya daxil olan maddələrin aktivləşməsi üçün sərf edilən enerji miqdarı az olduqda reaksiya sürətlə, çox olduqda isə yavaş gedir.



Kimyəvi tarazlıq və tarazlığa təsir edən amillər

Məlumdur ki kimyəvi reaksiyalar dönən və dönməyən olmaqla 2 qrupa bölünür.Bir istiqamətdə gedən reaksiyalar dönməyən ,hər iki istiqamətdə gedən reaksiyar dönən reaksiyalardır. Reaksiyaların sona qədər getməsi üçün rəng dəyişməlidir,iy çıxmalıdır,alınan maddələrdən biri ya qaz,ya da çöküntü ,yaxud az dissosiaiya edən maddə olmalıdır.Məs: $NaCI + AgNO_3 \rightarrow NaNO_3 + AgCI$

$$Zn + HCI \rightarrow ZnCI_2 + H_2 \qquad KOH + HCI \rightarrow KCI + H_2O$$

Əksər kimyəvi reaksiyalar dönərdir ,yəni axıra qədər getmir:Məs:$N_2 + 3H_2 \leftrightarrow 2NH_3$

Əgər sağa gedən reaksiyanın sürəti sola gedən reaksiyanın sürətinə bərabər olarsa tarazlıq halı yaranır.Bu tarazlıq dinamiki tarazllıq adlanır. Bunu qrafiki şəkildə belə göstərmək olar.
Tutaq ki. A və B maddələri reaksiyaya daxil olub.

$aA + bB \leftrightarrow cC + dD$ maddələrini əmələ gətirir.
υ_1 -düzünə gedən υ_2 əksinə gedən reaksiyanın sürətidir. $\upsilon_1 = K_1[A]^a[B]^b$ və ya $\upsilon_1 = K_1 C_A^a C_B^b$

$$\upsilon_2 = K_2 [C]^c[D]^d \qquad \upsilon_2 = K_2 C_C^c \, C_D^d$$



Sol tərəflər bərabərdirsə sağ tərəfində bərabərliyini yazmaq olar.

$$K_1 C_A^a C_B^b = K_2 C_C^c \, C_D^d$$

Bura kütlələrin təsiri qanunu t.tbiq etsək aşağıdakı tənliyi alarıq.

$$\frac{K_1}{K_2} = \frac{[C]^c[B]^b}{[A]^a[B]^b}$$

K_1 və K_2 kəmiyyətləi sabit olduğundan onların nisbətləri də sabit kəmiyyət olacaq.

$$K = \frac{K_1}{K_2} = \frac{[C]^c[B]^b}{[A]^a[B]^b}$$

K-tarazlıq sabiti adlanır.Tarazlıq sabitinin qiyməti nə qədər böyük olarsa son məhsulların qatılığı da çox olar. Tarazlıq sabitinin qiyməti düzünə gedən reaksiyanın tərsinə gedən reaksiyaya nisbətən neçə dəfə sürətlə getdiyini göstərir. Xarici şərait dəyişdikdə tarazlıq halı uzun müddət sabit qalır. Tarazlığın xarici şəraitdən aslılığı 1884 -cü ildə fransız alimi Le -Şatelye tərəfindən müəyyən edilmişdir və aşağıdakı kimi ifadə olunur: Tarzlıqda olan sistemə təsir edən amillərdən biri dəyişərsə tarazlıq təsir effektinin azalması istiqamətində yerini dəyişir.Tarazlığa temperatur,qatılıq və təzyiq təsir edir.

Temperaturun təsiri: Temperatur artdıqdatarazlıq endotermik,azaldıqda isə endotermik reaksiya istiqamətində yerini dəyişir. Məs:suyun əmələ gəlməsini nəzərdən keçirək. Temperatur artarsa tarazlıq suyun parçalanması,azaldıqda isə suyun əmələ gəlməsi istiqamətində yerini dəyişir.

$$H_2+O_2 \rightleftarrows H_2O$$

Təzyiqin təsiri: təzyiqin tarazlığa təsirini ammonyakın alınması misalında göstərək.

$$N_2+3H_2 \rightleftarrows 2NH_3$$

Təzyiqin artması tarazlığı sağa,yəni ammonyakın alınması istiqamətinə,azaldıqda isə sola doğru yerini dəyişir.

Qatılığın təsiri: Reaksiyaya daxil olanmaddələrdən birinin qatılığı artdıqda tarazlıq sağa,az altdıqda isə sola doğru istiqamətini dəyişir. Bunu rəngin tündləşməsilə müşahidə etmək olar.Məs:

$$FeCI_3+3KCNS \rightleftarrows Fe(CNS)_3+3KCI$$

Əksinə reaksiya məhsullarından birinin qatılığını artırdıqda tarazlıq sola döğru yerini dəyişir və dəmir 3-rodanidin qatılığı azaldığından məhlulu rəngi açılır.

Məhlullar

Bir maddənin çox kiçik hissəciklər şəklində başqa maddə mühitində paylanmasından alınan sistem dispers sistem adlanır. Paylanan maddə dispers faza,mühit isə dispers mühit adlanır.

Dispers faza və dispers mühitin aqreqat halından asılı olaraq 9 cür olur.

M +M	**Su+spirt**	**B+M**	**Qənd=Su buxarı**	**Q+M**	**hava+su damcıları**
M+B	**Su+ qənd**	**B+B**	**Ərintilər**	**Q+B**	**hava +toz hissəcikləri**
M+Q	**Qazlı su**	**B+Q**	**Kömür+qaz**	**Q+Q**	**hava**

Paylanan maddə hissciklərinin ölçüsünə görə məhlullar 3 qrupab ölünür.1.Asılqanlr,2.Kolloid məhlullar, 3.Həqiqi və ya molekulyar məhlullar.

Hissəciklərinin ölçüsü 100 nm-dən böyük olan məhlullar asılqanlar adlanır. Asılqanlar davamsız olur.Asılqanlara suspenziya və emulsiya daxildir. Suspenziyada paylanan maddə hissəcikləri bərk olur.Məs.bulanlıq su.

Emulsiyalarda isə həm paylanan maddə hissəcikləri , həm də mühit maye olur. Südün tərkibində yağ hissəcikləri.

Hissəciklərin ölçüsü 1-100nm arasında olan sistem kolloid məhlul adlanır. Kolloid məhlul asılqanlarla həqiqi məhlullar arasında aralıq mövqe tutur.

Hissəciklərinin ölçüsü 1nm-dən kiçik olan məhlullar həqiqi və ya molekulyar məhlul adlanır.Məs: su –spirt,aseton-su vəs.

Həlledici və həll olan maddədən ibaarət dəyişən tərkibli bircinli sistemə məhlul deyilir. Məhlullar haqqında 2 nəzəriyyə mövcuddur.

1. Fiziki nəzəriyyə
2. Kimyəvi nəzəriyyə

Fiziki nəzəriyyənin tərəfdarları Arrenius, Ostvald və Vant-Hoffdur. Onlar həllediciyə inert mühit kimi baxırdılar.Yəni həlledici ilə həll olan maddə arasında qarşılıqlı təsiri inkar edirdilər və məhlula mexaniki qarışıq kimi baxırdılar.

Kimyəvi nəzəriyyə isə Mendeleyev tərəfindən verilmiş hidrat nəzəriyyəsi əsasında izah edilir. Bu nəzəriyyəyə görə həllolma zamanı həlledici ilə həll olan maddə arasında qarşılıqlı təsir var və məhlulda yaşaya bilən davamsız birləşmələr - **solvatlar** əmələ gəlir.Əgər həlledici su olarsa **hidratlar** adlanır. Hidratların çoxu davamsız olur. Nəzəriyyənin düzgünlüyü təcrübi faktlar əsasında izah edilmişdir. Məs: Mendeleyev sulfat turşusunun müxtəlif tərkibli hidratlarının əmələ gəlməsini müşahidə etmişdi. Bunun üçün üxtəlif qatılıqlı sulfat turşusu məhlulunu soyutduqda müxtəlif tərkibli hidratların alındığını

müəyyən etmişdir. $H_2SO_4 \cdot H_2O$, $H_2SO_4 \cdot 2H_2O$, $H_2SO_4 \cdot 3H_2O$,$H_2SO_4 \cdot 4H_2O$. Bu birləşmələr həlledici ilə həll olan maddə arasında əmələ gələn davamsız birləşmələrdir.Onlar yalnız məhlulda mövcud olur.

Həm fiziki,həm də kimyəvi nəzəriyyə hər ikisi birlikdə məhlulların müasir nəzəriyyəsinin əsasını təşkil edir. Məhlul mürəkkəb fiziki-kimyəvi prosesdir.

Məhlulların qatılıq ifadələri.

Məhlulun və ya həlledicinin müəyyən həcmində və kütləsində həll olan maddə miqdarına məhlulun qatılığı deyilir.

Məhlullar qatılığına görə- faizli,normal,molyar,molyal və titrli olur.

1) **Məhlulun 100 qramında həll olan maddə miqdarı faizli qatılıq adlanır.**

$$C\% = \frac{m_1}{m_2} \cdot 100 \quad \text{yaxud} \quad C\% = \frac{m}{V \cdot \rho} \cdot 100 \text{ olur.}$$

m_1 – həllolan maddənin; m_2 –məhulun kütləsidir.

Məs:30%-li məhlul dedikdə 30q həllolan maddə,70q isə həlledici götürülür. 2.Məhlulun 1l-də həllolan maddənin q-ekv.miqdarı normal qatılıq adlanır,riyazi ifadəsi

$$C_N = \frac{m}{E \cdot V_{(l)}}$$

m - həllolan maddənin kütləsidir.;

E - həllolan maddənin q-ekvivalenti;

$V_{(л)}$ – məhlulun həcmidir.litrlə

Əgər həcm ml-ə götürülərsə tənlik

$$C_N = \frac{m.1000}{E \cdot V} \text{ olar.}$$

v) **məhlulun 1l həll olan maddələrin q-mollarla sayı molyar qatılıq adlanır ,riyazi ifadəsi.**

$$C_M = \frac{m}{M \cdot V} \cdot 1000 \quad \text{yaxud} \quad C_M = \frac{m}{M \cdot V_{(л)}} \quad \text{kimi yazmaq olar.}$$

m – həllolan maddənin kütləsidir;

M - həllolan maddənin q-mol kütləsidir.

$V_{(л)}$ –məhlulun həcmidir.

q) **Həlledicinin 1000q-da həll olan maddənin q-mollarla sayına molyal qatılıq deyilir.**

$$C_{mol} = \frac{m \cdot 1000}{M \cdot m_1}$$

m - həllolan maddənin kütləsidir;;

M - həllolan maddənin kütləsidir;

m_1 - həlledicinin kütləsidir;

д) **Məhllulun 1ml içərisində həll olan maddənin qramlarla miqdarı titrli qatılıq adlanır.:**

$$T = \frac{C_N E}{1000} = \frac{m}{1000}$$

Osmos təzyiqi(Vaant Hoff qanunu)

Həlledici və həll olan maddələrin əks istiqamətli hərəkəti nəticəsində bir-birində bərabər paylananma hadisəsi **diffuziya** adlanır. M əs:NaCI məhlulu nüzərinə su molekulları əlavə etsək duz molekulları tədricən suya ,su molekulları isə duz molekulları isə məhlula keçəcəkdir. mmMüəyyən müddətdən sonara NaCI və su molekulları məhlulun bütün həcmində yayılaraq bircinsli məhlul əmələ gətirəcəkdir. Deməli həlledici ilə həll olan maddə molekulları bir-birinə toxunduqda ikitərəfli diffuziya baş verir. Təcrübə zamanı birtərəfli diffuziya hadisəsidə baş verir. Birtərəfli diffuziya ya məhlulla həlledici,ya da iki müxtəlif qatılıqlı iki məhlul arasında yarımsızdırıcı pərdə vasitəsilə bir-birindən ayrılmış ololur. Bu cür yarımsızdırıcı arakəsmə həlledici molekullarını özündən keçirir . Bu zaman həlledici molekulları yarımsızdırıcı pərdədən keçdikdə məhlulun səviyyəsi qalxacaq. Həlledicinin birtərəfli diffuziyası nəticəsində yaranan təzyiq osmos təzyiqi adlanır.

Proses o vaxta qədər davam edir ki, qatılıqlar bərabərləşsin. Qatılıqları bərabər olan məhlullara izoosmotik məhlullar deyilir.

Osmos təzyiqinə müxtəlif amillər təsir edir. 1. Temperatur,2.qatılı1ıq

1.Sabit temperaturda (T=Const) məhlulun osmos təzyiqi(P_{osmos}) məhlulun qatılığı ilə düzmütənasibdir. Temperatur artarsa diffuziyanın sürəti də artar

$$P_{osmos}=kC$$

2.Sabit qatılıqda()temperaturda (C=Const) məhlulun osmos təzyiqi(P_{osmos}) onun temperature ilə düzmütənasibdir.

$$P_{osmos}=kT$$

Məhlulun qatılığı və həll olan maddə hissəciklərinin ölçüsü böyüyərsə əks proses baş verər.

Qazın təzyiqi ilə osmos təzyiqi arasındakı oxşarlıq Vant-Hoff tərəfindən müəyyən edilmişdir və belə ifadə olunur:**Məhlulda həll olan maddəni qaz halına keçirə bilsək, onun həcmi məhlulun həcminə çatdıqda, qazın təzyiqi məhlulun osmos təzyiqinə bərabər olur.**

Vant-Hoff müəyyən etmişdir ki,q/elektrolitlərin duru məhlullarının osmos təzyiqini Mendeleyev-Klayperon tənliyi ilə hesablamaq olar: PV = RT

$$\boldsymbol{P_{osmos} \cdot V = \frac{m}{M} RT} \text{ olar.}$$

V= I/C olduğundan P_{osmos} =CRT kimi yazmaq olar. Buradan

—

°C

Raulun I qanunu

Qapalı qabda mayenin buxarlanması və buxarın kondensləşərək mayeyə çevrilməsi arasında tarazlıq yarandıqda maye üzərindəki buxara **doymuş buxar təzyiqi** deyilir. Məlumdur ki,temperaturun artması buxar əmələ gəlməsini sürətləndirir .Buna görə də buxarın təzyiqi artırtr. Saf suyu 100°C qızdırdıqda onun buxar təzyiqi atmosfer təzyiqinə bərabər olduğu üçün su qaynayır. Ümumiyyətlə maye o zaman qaynayır ki, onun doymuş buxarının təzyiqi atmosfer təzyiqinə bərabər olsun .Təcrübi faktlar əsasında müəyyən edilmişdir ki, saf həlledicidə uçucu olmayan qeyri-elektrolit həll edildikdə məhlulun buxar təzyiqi saf həlledicinin buxar təzyiqindən həmişə az olur. Bəs bu nə ilə izah olunur. Bu onunla izah olunur ki, məhluldan fərqli olaraq saf həlledicidə buxarlanma bütün səthdə gedir. Məhlulda isə həll olan maddə hissəcikləri həlledicinin hissəcikləri ilə əlaqli şəkildə olduğundan ,vahid zamanda həlledicinin buxarlanan molekullarının sayının az olmasıdır. Deməli həll olan maddə həlledicinin buxar təzyiqini azaldır.

Əgər saf həlledicinin buxar təzyiqini P_0 onun məhlul üzərindəki buxar təzyiqini P ilə işarə etsək, məhlulun buxar təzyiqininin nisbi azalması $\Delta P=P_0-P$ olar. Məhlulun buxar təzyiqinin nisbi azalmasının saf həlledicinin buxar təzyiqinə nisbəti $\frac{\Delta P}{P_0}$ həlledicinin buxar təzyiqinin nisbi azalmasını göstərir.

Bunu ilk dəfə 1887-ci ildə fransız alimi Raul uçucu olmayan qeyri-elektrolitlərin duru məhlullarının buxar təzyiqini öyrənmiş və bu qanunu vermişdir və qanun belə ifadə olunur: Həlledicinin məhlul üzərindəki buxar təzyiqinin nisbi azalması,həll olan maddə mollarının sayının məhlulda olan mollarının ümumi sayına olan nisbətinə bərabərdir.

$$\frac{\Delta P}{P_0} = \frac{n}{N+n}$$

Burada n-həll olan maddə mollarının sayı,N-həlledicinin mollarının sayı;N+n isə məhlulun ümumi mollarının sayıdır

$\frac{n}{N+n}$ məhlulun mollarının ümumi sayının neçə hissəsinin həll olan maddə olduğunu göstərir..

$\frac{n}{N+n}$ həll olan maddənin mol hissəsidir.

Çox duru q/elektrolit məhlullarda N+n ≈ N kimi yazsaq tənlik belə ifadə olunar. $\frac{\Delta P}{P_0} = \frac{n}{N}$ yaxud $\Delta P=P_0\frac{n}{N}$ kimi yazmaq olar. Bu tənlik Raulun I qanunuı riyazi ifadəsidir və aşağıdakı kimi ifadə olunur.

Uçucu olmayan q/elektrolitlərin duru məhlulları üzərində həlledicinin buxar təzyiqinin nisbi azalması həll olan maddənin mollarının sayı ilə düz mütənasibdir.

Raulun II qanunun

Məhlulların əsas xassələrindən biri onların kolliqativ xassələridir. Kolliqativ xassə dedikdə məhlulun elə xassəsi nəzərdə tutulur ki, onlar bir-birilə bağlıdır və həll olan maddə hissəciklərinin sayından aslıdır.Əgər həllediciyə həll olan maddə əlavə etdikdə həllolan maddənin fiziki xassələri ilə yanaşı həlledicinin də xassələri dəyişir.

1.Həlledici üzərində buxar təzyiqi çox,məhlul üzərində az olur

2. Məhlulun qaynama t-u həllediciniinkindən yuxarı olur

Məhlulun qaynama temperaturunun yüksəlməsi və donma temperaturunun aşağı düşməsi məhlulun molyal qatılığı ilə düzmütənasibdir.

$\Delta t_{qay.}$=Ec olarsa, qatılıq $C=\frac{m\cdot 1000}{m_1\cdot M}$ olduğundan $\Delta t_{qay.}=E\,\frac{m\cdot 1000}{m_1\ M}$ olacaq.

burada-$\Delta t_{qay.}$-qaynama temperaturunun aşayuxarı qalxması, E həledicinin ebulioskopik sabitidir. C-molyal qatılıqdır.

$\Delta t_{don.}$=Kc olduğundan $\Delta t_{don.}=K\,\frac{m\cdot 1000}{m_1 M}$ olacaq.

$\Delta t_{don.}$= donma temperaturunun aşağı düşməsi,K-həlledicinin krioskopoik sabitidir.

Əgər C=1 olarsa onda $\Delta t_{qay.}$=E, $\Delta t_{don.}$=K olar

Verilən tənliklərdən istifadə edərək məhlulun qaynama və donma temperaturuna əsasən uçucu olmayan qeyri elektrolitlərin molekul kütləsini təyin etmək olar.

Raul qanunuları yalnız q/elektrolitlərin duru məhlullarına tətbiq olunur. Elektrolit maddələr Raul qanunlarına tabe olmur. Məs.NaCI krioskopik üsulla təyin edilmiş molekul kütləsi həqiqi molekul kütləsindən iki dəfə çox olur. Buna səbəb NaCI molekulunun dissosiasiyası zamanı yüklü hissəciklərin sayının artmasıdır. Bu cür hal Raul qanunundan kənara çıxmadır. Raul qanununu elektrolit məhlullara tətbiq etmək üçün tənliyə izotonik(i) əmsal əlavə edilmişdir. Yəni

$\Delta P=\ i\ P_0\frac{n}{P}$, Δt_{qay}= iEc , $\Delta t_{don.}$= iKc

İzotonik əmsal vant-Hoff və Raul qanundan kənara çıxmanı göstərir. Daha doğrusu izotonik əmsal təcrübədə təyin edilmiş qaynama və donma temperaturlarının qiymətinin nəzəri hesablanmış qiymətlərindən neçə dəfə çox olduğunu göstərir. $I=\frac{\Delta P_{təc}}{\Delta P_{nəz}}=\frac{(\Delta t_{qay.})təc}{(\Delta t_{qay.})nəz.}=\frac{\Delta t_{don.})təc}{(\Delta t_{don})nəz}$